Təhsil Nazirliyində təşkil olunan bu tədbirdə "Microsoft" şirkətinin əməkdaşları, ölkəmizdə İKT sahəsində fəaliyyət göstərən bir sıra qurumların rəhbərləri və digər şəxslər iştirak edib.

Tədbirdə təhsil naziri Misir Mərdanov qeyd edib ki, Təhsil Nazirliyi ilə "Microsoft" şirkətinin Anlaşma Memorandumu çərçivəsində əməkdaşlığı "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"na dəstək məqsədilə həyata keçirilir. Nazir bildirib ki, "Microsoft" şirkəti ölkəmizdə bir sıra istiqamətlər üzrə fəaliyyət göstərir və bu qurum tərəfdaşları ilə birgə müəllim və şagirdlər üçün yeni imkanlar yaratmaq, təhsili daha da təkmilləşdirmək üçün "İnnovativ Müəllimlər", "İnnovativ Tələbələr", eləcə də "İnnovativ Məktəblər" layihəsini həyata keçirir. Misir Mərdanov əlavə edib ki, bu şirkətlə əməkdaşlıq çərçivəsində orta məktəblərə verilmiş kompüterlərin lisenziyalaşdırılmış proqramla təminatı, müəllimlərin beynəlxalq səviyyəli forum və digər tədbirlərdə iştirakı, "Xalq kompüteri" layihəsi istiqamətində müvafiq işlər həyata keçirilib.

"Microsoft" şirkətinin Orta və Qərbi Avropa üzrə "Təhsildə Əməkdaşlıq" Proqramının rəhbəri Teodor Milev Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə birgə reallaşdırılmış layihələrdən söz açıb və qeyd olunan sahədə lazımi dəstək göstərməyə hazır olduqlarını diqqətə çatdırıb. Qonaq imzalanacaq memoranduma böyük ümid bəslədiyini vurğulayıb.

Sonda təhsil naziri Misir Mərdanov, "Microsoft" şirkətinin Orta və Qərbi Avropa üzrə "Təhsildə Əməkdaşlıq" Proqramının rəhbəri Teodor Milev və "Microsoft Azərbaycan" şirkətinin baş direktoru Teymur Axundov Anlaşma Memorandumunu imzalayıblar.